# İnkişaf strategiyası, iqtisadiyyatın modernləşdirilməsi sahibkarlıq üçün əlverişli mühit yaradır



**Son dövrdə ölkəmizin sosial-iqtisadi inkişafı və dünya təsərrüfat sisteminə inteqrasiyası sahəsində çox böyük nailiyyətlər əldə olunmuşdur. Ən böyük nailiyyət isə ondan ibarətdir ki, bu dövrdə ölkəmizdə aparılan müstəqil dövlət quruculuğu prosesində iqtisadi islahatların və inkişafın mahiyyət etibarilə yeni bir model - Azərbaycan modeli yaranmışdır.**

Bu gün biz həmin modelin davamı olaraq ciddi iqtisadi islahatlar dövrünə qədəm qoymuşuq. Azərbaycan Respublikası Prezidentinin "Milli iqtisadiyyat və iqtisadiyyatın əsas sektorları üzrə Strateji Yol Xəritəsinin başlıca istiqamətlərinin təsdiqi və bundan irəli gələn məsələlər haqqında sərəncamında ölkə iqtisadiyyatının yol xəritəsi hazırlanıb. Dövlət başçısının təsdiqlədiyi bu yol xəritəsi ticarət və logistika sahəsinin inkişafına həsr olunmuşdur.

Ölkəmizin Avrasiyanın əhəmiyyətli nəqliyyat-logistika mərkəzlərindən biri kimi özünütəsdiq etməsinə yönəlmiş irimiqyaslı infrastruktur layihələri, ən yeni texnoloji standartlar səviyyəsində gəmiqayırma zavodunun istifadəyə verilməsi, Bakı-Tbilisi-Qars dəmir yolunun açılışı və Xəzərdə ən böyük Bakı Beynəlxalq Dəniz Ticarət Limanının istifadəyə verilməsi son illər Azərbaycanda bu istiqamətdə məqsədyönlü strateji planın uğurla reallaşdırılmasının bariz nümunələridir.

Şübhəsiz ki, iqtisadiyyatın belə kompleks modernləşdirilməsi prosesi və onun hüquqi bazası ilk növbədə sahibkarlıq üçün olduqca əlverişli imkanlar və şərait yaradır, xüsusən də iqtisadiyyatın qeyri-neft sektorunun əhəmiyyətli istiqaməti olan nəqliyyat-logistika sahəsində fəaliyyət göstərən sahibkar təsisatları üçün. Öz növbəsində belə münbit şərait həm vergitutmanın bazasını inkişaf etdirməklə, eyni zamanda sosial proqramların həyata keçirilməsinə olduqca böyük dəstəkdir. Buna hazırda iqtisadi məkanda nəqliyyat-logistika xidmətləri göstərən şirkətlər şahiddirlər.

Vaxtilə Böyük Britaniya təsisçiləri və sərmayəçilərinin dəstəyi ilə təsis edilmiş, hazırda isə 80 nəfərdən artıq azərbaycanlı işçiləri ilə qeyd olunan, sahədə müvəffəqiyyətlə fəaliyyət göstərən lider şirkətin - **"Murphy Shipping and Commersial Servis Azərbaycan" şirkətinin Baş direktoru Sabir Əliyev** bildirdi ki, 27 ilə yaxındır Xəzəryanı regionda və xüsusilə də Zaqafqaziyada, Azərbaycanda beynəlxalq və yerli gömrük qanunvericiliyinə uyğun olmaqla avtomobil nəqliyyatı yolu ilə, hava yolu ilə, su nəqliyyatı vasitəsi ilə, dəmir yolu ilə beynəlxalq yük daşınmaları təhlükəsizlik təmin olunmaqla həyata keçirir və gömrük brokeri, saxlanc (anbar) xidmətləri ilə məşğul oluruq. Açıq sahəsi - 8 min kvadratmetr, qapalı anbar sahəsi isə 2 min kvadratmetrdən ibarət olan anbar kompleksimiz Qaradağ rayonunda yerləşir. Eyni zamanda, şirkətimiz müasir avadanlıqla təchiz olunan mühafizə altında daimi nəzarət olan açıq meydança və qapalı anbar sahələrimizdə malların saxlanılmasını, müştərinin istəyinə əsasən, onu işçi qüvvəsi, avto və yardımçı texnika ilə təmin etməklə yükün yığılmasını, qablaşdırılmasını, həm də bütün növ yüklərin boşaldılmasını, yüklənməsini və çatdırılmasını, daşınan malların marşrut üzrə müşahidə etməklə, müştəriləri məlumatlandırmağı həyata keçirir.

Təcrübəli və peşəkar komanda kimi formalaşan kollektivimiz, irimiqyaslı və uzunmüddətli layihələri həyata keçirməklə yüklərin vaxtında, həm də tam həcmdə çatdırılmasına, öz öhdəliklərinin yerinə yetirməsinə daxili nəzarət edir və buna zəmanət verir. Çox qiymətli, qabaritli, ağır çəkili, xüsusi təhlükəli yüklərin yüksək səviyyədə tez, ən qısa vaxt ərzində, yüksək keyfiyyət və sərfəli qiymətlərlə dünyanın istənilən nöqtəsinə çatdırılmasını, nəqliyyatda lazım olan bütün gömrüklənmə və sənədləşdirmə işləri ilə də müştərilərini təmin edir. Çalışdığımız dövrdə şirkətimiz dünya standartları səviyyəsində nəqliyyat-ekspeditor xidməti üzrə qlobal iştirakçı kimi tanınmışdır.

Azərbaycan Respublikasının Prezidenti cənab İlham Əliyevin uğurlu siyasəti nəticəsində ölkəmizdə sahibkarlıq inkişaf edir. Sahibkarlıq sahəsində yeni qanunlar qəbul olunub, inzibati orqanlarda islahatlar aparılır. Belə islahatlar sahibkarlıq baxımından gömrük orqanlarında özünəməxsus yer tutur. Normativ baza təzələnib və sahibkarlar üçün əlverişli şərait yaradılıb. Beynəlxalq yükdaşımalar üçün Azərbaycan unikal tranzit ölkədir. 2015-ci il oktyabrın 21-də Prezident İlham Əliyevin sərəncamı ilə tranzit yükdaşımalar üzrə koordinasiya şurasının yaradılması, tranzit yükdaşımalar zamanı bir pəncərə prinsipi artıq tətbiq olunub. Bu isə o deməkdir ki, uzağı 15 dəqiqə müddətində sənədlərlə bağlı məsələlər həll olunur.

Gömrük sənədləşdirmələri və anbar xidməti üçün onlayn rejimi fəaliyyət göstərir. Bu zaman yük sahibi sifarişi internet vasitəsilə verir. Rekvizit və digər sənədlər də onlayn rejimində verilir. Bu da operativliyi daha da yüksək səviyyədə təmin edir.

Bakı-Tbilisi-Qars dəmiryolunun işə salınmasından sonra isə yeni bir era başlanmışdır. Dövlətimizin Çindən Avropaya və oradan da uzaqlara gedib çıxan yoldakı əhəmiyyətli mövqeyi bunu şərtləndirir.

Azərbaycan Respublikası Prezidentinin 2016-cı il martın 4-də imzaladığı "Gömrük sistemində islahatların davam etdirilməsi ilə bağlı əlavə tədbirlər haqqında" Sərəncam ölkəmizdə inqilabi dəyişikliklərə yol açmışdır.

Tez-tez təmasda olduğumuz Bakı Baş Gömrük İdarəsində də bunun şahidi oluruq. Hazırda gömrük sahəsində müntəzəm olaraq islahatlar aparılır, o cümlədən "Asan gömrük xidməti" tətbiq olunur. Bu isə yüklərin daşınmasına və tranzit idxalına əlverişli şərait yaradır. Bununla da sahibkarların vaxtına qənaət olunur. Burada sahibkarlara, müştərilərə göstərilən xidmətin səviyyəsi və keyfiyyəti xeyli artıb, gömrük rəsmiləşdirilməsi, çatdırma xidmətlərinin səviyyəsi müasir bazar tələblərinə tam cavab verir. Sənədlər vaxtında rəsmiləşdirilir, müştərilərə operativ, yüksək standartlı və sürətli mədəni xidmət göstərilir, şəffaflıq, düzgünlük, aydınlıq prinsiplərinə əməl olunur.

Müştərilərimiz və tərəfdaşlarımız neft və qaz sənayesi sahəsində fəaliyyət göstərən ARDNŞ, BP, Chevron, Khazar Deniz Service, Nobel Oil, SOCAR Dalgic, Statoil; neft kimya sənayesində Az Me Co, SOCAR "Azerikimya" İB; hökumət və təhsil sahəsində AZPROMO, Government of Georgia, Qatar Embassy; telekommunikasiya və İT sənayesində Azercell Telekom, Maybo, RİSK və bir çox başqa şirkətlərdir. Qaradağda, Hava limanında, Bakı Gömrük istiqamətində yerləşən 4 ofis vasitəsilə layihə idarəetmə, dövlət-gömrük koordinasiyası, geniş logistika xidmətləri göstəririk. Gələcək layihələr çərçivəsində "Murphy Shipping and Commersial Servis Azərbaycan" şirkəti Gürcüstanda logistika ilə bağlı bir neçə layihəyə investisiya qoyub. Qeyd edək ki, bu layihələr başa çatdıqdan sonra Azərbaycan - Gürcüstan və Rusiya arasında beynəlxalq tranzit yükdaşımalarının logistika qovşağı kimi xidmət göstərəcək.

Bu gün Azərbaycanda sosial-iqtisadi inkişaf strategiyası uğurla həyata keçirilməklə həm regionda, həm də dünyada seçilən ölkələrdən birinə çevrilmişdir. Prezident İlham Əliyevin məqsədyönlü və uzaqgörən siyasəti sayəsində uğurlarımız daha da artır. Ölkəmizdə yeni strategiyanın hazırlanması, ən müasir texnologiyaların tətbiq etməklə iqtisadiyyatın modernləşdirilməsi, qeyri-neft sektorunun hərtərəfli inkişafı dövlət və özəl qurumların birgə fəaliyyəti sahibkarlıq üçün əlverişli mühit, makroiqtisadi sabitlik yaratmış və ölkənin yüksək investisiya cəlbediciliyi təmin edilmişdir. Bütün bunların nəticəsidir ki, ölkədə iqtisadiyyat sürətlə və davamlı inkişaf edir və müstəqil respublikamız bu uğurları ilə yaxın gələcəkdə daha da qüdrətli dövlətə çevriləcək.

**Bəybala BƏYBALAYEV,**
**"Respublika".**

Respublika.- 2020.- 26 yanvar.- S.7.